*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 24 oktyabr 2015-ci il | № 81 (1997) | Qiyməti 25 qəpik


## Rəsmi xronika

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də İran İslam Respublikasının Şərqi Azərbaycan vilayətinin valisi İsmayıl Cabbarzadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*İran İslam Respublikasının Şərqi Azərbaycan vilayətinin valisi İsmayıl Cabbarzadənin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan-İran ikitərəfli münasibətlərinin inkişafı baxımından böyük əhəmiyyət daşıdığını vurğulayan dövlətimizin başçısı səfərin qonaqların ölkəmizlə bir daha yaxından tanış olmaları üçün də yaxşı fürsət yaradacağını qeyd etdi. Əlaqələrimizin uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev ölkələrimizin bütün sahələrdə dostluq və qardaşlıq prinsipləri əsasında birgə fəaliyyət göstərmələrinin önəmini vurğuladı.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mohamed Hamel Alqubaisinin etimadnaməsini qəbul edib.*

*Dövlətimizin başçısı Azərbaycanla Birləşmiş Ərəb Əmirliklərinin bir-birinə yaxın və dost ölkələr olduğunu vurğulayaraq ölkələrimiz arasında siyasi əməkdaşlığın çox yüksək səviyyədə olmasının məmnunluq doğurduğunu dedi. Birləşmiş Ərəb Əmirliklərindən ölkəmizə müxtəlif səviyyəli nümayəndə heyətlərinin səfərlərinə toxunan Prezident İlham Əliyev ikitərəfli münasibətlərin inkişafı üçün böyük potensialın olduğunu, iqtisadiyyat, investisiya qoyuluşu, kənd təsərrüfatı, turizm sahələrində imkanların müəyyənləşdirilməsinin vacibliyini bildirdi. Dövlətimizin başçısı regional təhlükəsizlik məsələlərinin əhəmiyyətini vurğulayaraq beynəlxalq terrorizmə qarşı mübarizənin zəruriliyini də qeyd etdi.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də İsveçrə Konfederasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Filip Ştalderin etimadnaməsini qəbul edib.*

*Azərbaycanla İsveçrə arasında mövcud olan möhkəm əməkdaşlığın son illər ərzində daha da inkişaf etdiyini deyən Prezident İlham Əliyev bu əlaqələrin bir çox sahələri əhatə etdiyini məmnunluqla diqqətə çatdırdı. Dövlətimizin başçısı İsveçrə prezidentlərinin Azərbaycana, həmçinin, özünün İsveçrəyə rəsmi səfərlərinə toxunaraq yüksək səviyyəli qarşılıqlı təmasların və xarici işlər nazirlikləri arasında aparılan fəal dialoqun önəmini vurğuladı. İqtisadi sahədə, o cümlədən qarşılıqlı sərmayə qoyuluşu sahələrində də yaxşı nəticələrin əldə olunduğunu bildirən Prezident İlham Əliyev bunu ölkələrimiz arasında mövcud olan hərtərəfli əməkdaşlığın göstəricisi kimi dəyərləndirdi.*

**AZƏRTAC-ın materialları əsasında**

## General-polkovnik Zakir HƏSƏNOV:

# Silahlı Qüvvələrin möhkəmləndirilməsi Ali Baş Komandan, Azərbaycan dövləti və xalqı tərəfindən önəm verilən məsələlərdən ən əsasıdır

## Hərbi Hava Qüvvələrinin aviabazasında yeni yaşayış binasının açılış mərasimi keçirilib



***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi qulluqçuların mənzil və sosial-məişət şəraitlərinin yaxşılaşdırılması ilə əlaqədar müvafiq göstərişinə əsasən, oktyabrın 21-də Hərbi Hava Qüvvələrinin aviabazasında yeni inşa edilən yaşayış binasının açılış mərasimi keçirilib.***

Xidməti mənzillərin açarlarının təqdimetmə mərasimində hərbi qulluqçular və onların ailə üzvləri ilə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənov nazirliyin rəhbərliyi adından tədbir iştirakçılarını təbrik edərək bildirib:

"İlin sonuna kimi yalnız Bakı qarnizonunda 500-dən artıq yeni xidməti mənzillərin istifadəyə verilməsini planlaşdırırıq. Hərbi Hava Qüvvələrinin digər aviabazalarında hazırda 3 yaşayış binasının tikintisi davam etdirilir.

**(Ardı 2-ci səhifədə)**

## "Foreign Policy News" analitik nəşri:

# "Azərbaycan Cənubi Qafqazda və Yaxın Şərqdə mühüm rol oynayır"

***Amerikanın nüfuzlu "Foreign Policy News" analitik nəşrində "Antiazərbaycan ritorikası" adlı məqalə dərc edilib. Materialda Avropa Parlamentinin Azərbaycana ədalətsiz münasibətindən, ona qarşı ikili standartların tətbiq edilməsindən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edilir. Həmin məqalə beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert, İsraildəki "Cəmiyyət üçün beynəlxalq layihələr" qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut tərəfindən yazılıb.***

Müəllif vurğulayır ki, indiki Amerika administrasiyasının, eləcə də istər Yaxın Şərqdə, istərsə də Cənubi Qafqazda Avropa İttifaqının xarici siyasət strukturunun dəqiq və ölçülüb-biçilmiş xarici siyasət strategiyası yoxdur. Arye Qut yazır: "Amerika və Avropanın ölkələrə "demokratiya və insan hüquqlarına hörmət" gətirməli olan hərbi müdaxilə layihələrinin əksəriyyətinə nəzər salsaq, həmin layihələr bu ölkələrə və xalqlara böyük mənəvi və maddi ziyan vuraraq tamamilə iflasa uğrayıb. Avropalıların və amerikalıların guya demokratik rejimlər qurmağa cəhd göstərdiyi hər yerdə - Əfqanıstanda, İraqda, Liviyada, Suriyada bu cəhdlər tam siyasi fiaskoya uğrayıb, yüz minlərlə insanın əzab-əziyyətinə, həlak olmasına, son nəticədə milyonlarla qaçqın yaranmasına gətirib çıxarıb. Əlbəttə, Azərbaycanı insan hüquqlarının pozulmasında ittiham etmək riyakarlıq, nəzakətsizlik və ləyaqətsizlikdir, çünki bu ölkə 24 ildən artıq müddətdə Ermənistanın təcavüzündən əziyyət çəkir, bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal edilib və bir milyondan çox insan bu ərazilərdən qovulub. Məgər Avropa Parlamenti bunu bilmir? Bəlkə özünü bilməzliyə vurur? Bəlkə avropalılar elə hesab edirlər ki, öz torpaqlarından qovulmuş bir milyon azərbaycanlı qaçqının elementar insan hüquqları yoxdur? Onlar erməni silahlıları tərəfindən ələ keçirilmiş və indiyə qədər ermənilərin əlində dəhşətli və qeyri-insani şəraitdə girov saxlanılan 4000-dən çox dinc azərbaycanlının taleyi və insan hüquqları ilə nə üçün maraqlanmırlar?"

İsraildəki "Cəmiyyət üçün beynəlxalq layihələr" qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut vurğulayır ki, Azərbaycan haqlı olaraq ABŞ-ın və Avropanın xarici siyasətində ikili standartlarla əlaqədar öz incikliyini və bu siyasəti başa düşmədiyini bildirir. Müəllif vurğulayır: "Məsələ Krıma aid olanda ABŞ və Avropa Ukraynanın ərazi bütövlüyünə riayət olunmasının zəruriliyini sözsüz bəyan edir. Lakin Azərbaycanın ərazi bütövlüyünə münasibətdə, Dağlıq Qarabağa münasibətdə bu prinsipə məhəl qoyulmur. Müasir beynəlxalq münasibətlərdə bu ikili standart sadəcə qəbuledilməzdir".

İsrailli ekspert öz məqaləsində belə bir təbii sual verir: Nə üçün avropalılar və amerikalılar insan hüquqları ilə bağlı vəziyyətin heç də yaxşı olmadığı Ermənistana qarşı bu cür tələblər irəli sürmürlər? Müəllif yazır: "ABŞ Dövlət Departamentinin məruzəsində qeyd edildiyi kimi, insan hüquqlarının müdafiəsi məsələsində 2014-cü ildə Ermənistanda sistemli korrupsiya və idarəetmənin şəffaflığının çatışmaması, ədliyyə sisteminin müstəqilliyinin məhdudluğu və vətəndaşların öz hökumətini dəyişmək imkanının çatışmaması Ermənistanda ən böyük problem kimi qalıb. Məruzədə o da qeyd edilir ki, Ermənistan polisi etiraf ifadələri almaq məqsədilə istintaq zamanı işgəncə və döyülmə praktikasının tətbiqini davam etdirir. Ermənistan qanunvericiliyində təqsirsizlik prezumpsiyasının tanınmasına baxmayaraq, hakimiyyət orqanları bu qanuna hörmət etmirlər. Məruzədə, həmçinin, prezidentin əleyhinə danışanların "qulağını kəsmək" barədə polis rəisi müavininin hədə-qorxusu xatırladılır. Nədənsə həm Avropa Parlamenti, həm də digər Avropa strukturları Ermənistan barədə susurlar".

Müəllif qeyd edir ki, Ermənistan prezidenti Serj Sarkisyan bir neçə gün bundan əvvəl işğal edilmiş Dağlıq Qarabağı Ermənistanın ayrılmaz tərkib hissəsi elan edib. İsrailli ekspert yazır: "Tamamilə aydındır ki, prezident Sarkisyan bu bəyanatı ilə Dağlıq Qarabağın Ermənistan tərəfindən işğal olunmasını rəsmən etiraf edib. Belə ki, bu ölkənin rəsmi şəxsləri indiyə qədər bəyan edirdilər ki, Dağlıq Qarabağ "region sakinlərinin iradəsi ilə Azərbaycandan ayrılıb və münaqişənin tənzimlənməsinə dair danışıqlarda müstəqil tərəf kimi çıxış etməlidir". Ermənistan prezidenti artıq ikinci müddətə dövlət başçısı olduğuna baxmayaraq, daim özünü diplomatik protokol normalarına zidd aparır... Onun bütün bəyanatları bir daha sübut edir ki, Sarkisyan tamamilə məsuliyyətsiz və uzağı görməyən siyasətçidir, Ermənistanın siyasi həyatının ön səhnəsinə təsadüfən gəlib çıxmış separatçıdır. Onun əlləri dirsəyə qədər qan içindədir. O, özünün bütün çıxışlarında Ermənistanın işğalçı siyasətinə haqq qazandırmağa çalışır. Bu baxımdan mən tez-tez düşünürəm ki, Ermənistan prezidenti "meqaloerməni" yuxusundadır, Cənubi Qafqaz regionunda nələr baş verdiyini görmür. Ermənistan prezidenti öz ölkəsinin müstəqilliyi barədə danışmağı sevir, lakin mübahisəsiz faktdır ki, Ermənistan Cənubi Qafqazın ən asılı ölkəsidir".

Qutun fikrincə, Ermənistanda vəziyyət günbəgün gərginləşir, protest edənlərin, aclıq çəkənlərin və narazıların sayı artır, hərçənd hakimiyyətdə olanlar bu faktları gizlətməyə çalışırlar. Ermənistanın hakimiyyət orqanlarının bütün hərəkətləri açıq-aşkar nümayiş etdirir ki, Ermənistanda vəziyyət çox gərgindir. Bu, nə ilə bağlıdır? Serj Sarkisyan və Ermənistanı idarə edən, özünü bu ölkənin hakimiyyəti adlandıran kriminal-oliqarxik piramida bütün kiçik və orta biznesi məhv edir. Bu isə əhalinin narazılığına səbəb olur. Ölkədə işsizlik sürətlə artır və kütləvi aksiyalara çıxmağı arzu edənlər çoxalır. Ermənistanın hakimiyyət orqanları həqiqəti nə qədər gizlətsələr də, Ermənistan iqtisadiyyatında sistemli böhran baş verir. Ermənistanın hakimiyyət orqanları ölkə iqtisadiyyatının fəlakətli vəziyyətdə olmasına dəlalət edən həqiqi rəqəmləri gizlədir. Xalqın kəskin sosial narazılıqları Serj Sarkisyan rejiminə hökmən son qoyacaq. Məsələ yalnız bunun nə vaxt baş verəcəyindədir.

Arye Qut qeyd edir ki, İsrail dövləti Azərbaycan rəhbərliyinin və şəxsən Azərbaycan Prezidentinin yəhudi icmasına səmimi münasibətini yüksək qiymətləndirir. Dünyada bu münasibətin analoqu yoxdur. İsrailli ekspert Arye Qut yazır: "Biz İsraildə müasir dünyəvi, tolerant və güclü Azərbaycanın həqiqi və keyfiyyətli nümunəsini müşahidə edir və qiymətləndiririk. Bu illər ərzində ölkələrimiz arasında qarşılıqlı diplomatik və iqtisadi münasibətlər sürətlə genişlənib. Ölkələrimiz arasında ticari-iqtisadi əlaqələr tərəqqi edir, İsrail dünya bazarında Azərbaycan neftinin ən iri idxalçısıdır. İsrailin yüksək texnoloji sənaye məhsulları Azərbaycanın telekommunikasiya infrastrukturu layihələrində tətbiq edilir. Bununla belə, İsrail ilə Azərbaycan arasında, azərbaycanlılarla yəhudilər arasında münasibətləri təkcə qarşılıqlı maraqlarla izah etmək mümkün deyil. Bu gün ümumi dəyərlər və ortaq tarix müasir Azərbaycan-İsrail münasibətlərinə nüfuz edir. Hər iki ölkə onların arasında insani əlaqələr olması və müxtəlif dini-tolerant cəmiyyətlərdə yaşamaq qətiyyəti hesabına zənginləşir".

İsrailli ekspert öz məqaləsinin sonunda vurğulayır ki, bu gün Azərbaycan ABŞ, Avropa və İsrail dövlətinin həqiqi və real strateji tərəfdaşıdır. Arye Qut son olaraq yazır: "Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən cəmi 24 il keçir. Azərbaycan xalqı bu müstəqillik çərçivəsində yeni demokratiyanın əsasını qoyub. ABŞ və Avropa Azərbaycanın Sovet sistemi buxovlarını qırandan sonra necə böyük addımlar atdığını etiraf etməlidir. Bu gün ölkədə vətəndaş cəmiyyətinin strukturları, sağlam və davamlı demokratiyanın inkişafı üçün bütün bazis elementləri vardır. Ən başlıcası - dünyəvi Azərbaycan və onun xalqı inkişaf etməkdə və öz ölkəsini düzgün istiqamətdə qurmaqda davam edir".

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Respublikasının Müdafiə naziri Rusiyanın hərbi attaşesi ilə görüşüb



***Oktyabrın 22-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə fəaliyyət müddəti başa çatan Rusiya Federasiyasının Silahlı Qüvvələrinin hərbi attaşesi polkovnik Vladimir Çernenko ilə görüşüb.***

Görüşdə ölkələrimiz arasında hərbi, hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın yüksək səviyyəsindən məmnunluq ifadə olunub, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin region üçün vacibliyi, ikitərəfli əlaqələrin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Bundan əlavə, görüşdə Rusiya istehsalı olan müasir, yüksək dəqiqlikli döyüş texnikası, silah və digər hərbi təyinatlı vasitələrin ordumuzun silahlanmasına daxil edilməsi, bu sahədə fəaliyyətlərin hər iki dövlətin qarşılıqlı anlaşma və razılığı əsasında daha da genişləndirilməsi və davamlılığı məsələləri müzakirə olunub.

Görüşdə iki ölkənin Silahlı Qüvvələrinin birgə hərbi təlimlərinin keçirilməsi, qarşılıqlı səfərlərin, işçi görüşlərinin təşkili, ekspertlər səviyyəsində təcrübə mübadiləsi, Rusiyanın hərbi məktəblərində kursant və mütəxəssislərin hazırlanması məsələlərinə də diqqət yetirilib.

Müdafiə naziri Azərbaycanda fəaliyyət müddətində ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəmədiyinə görə hərbi attaşeyə təşəkkürünü bildirib və işlərində uğurlar arzulayıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən hərbi attaşe ölkəmizdən xoş təəssüratlarla ayrıldığını, Azərbaycan dövlətinin, xalqının və Silahlı Qüvvələrinin daim səmimi dostu olaraq qalacağını vurğulayıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

## General-polkovnik Zakir HƏSƏNOV:

# Silahlı Qüvvələrin möhkəmləndirilməsi Ali Baş Komandan, Azərbaycan dövləti və xalqı tərəfindən önəm verilən məsələlərdən ən əsasıdır

## Hərbi Hava Qüvvələrinin aviabazasında yeni yaşayış binasının açılış mərasimi keçirilib

**(Əvvəli 1-ci səhifədə)**

2015-ci ilin sonunadək biz 10-dək yeni hərbi hissənin açılışında iştirak edəcəyik. Görülən işlərin hamısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Silahlı Qüvvələrə göstərdiyi qayğının bariz nümunəsidir.

Ali Baş Komandan Silahlı Qüvvələrin bütün infrastrukturunun yenilənməsi ilə bağlı qarşımıza tapşırıq qoyub. Bu müddətdə biz xeyli işlər görüb, problemlərin əksər hissəsini həll etmişik. Ərazidə qərargah, əsgər yataqxanaları, yeməkxanalar, bu gün isə yeni yaşayış binası sizin istifadənizə verilir. Hərbi qulluqçular üçün ailəsinin rahatlığı onun xidmətinə çox müsbət təsir göstərir.

Hazırda dünyada baş verən maliyyə böhranına baxmayaraq, Azərbaycan gələn il üçün hərbi xərcləri yenə də artırdı. Silahlı Qüvvələrin möhkəmləndirilməsi Ali Baş Komandan, Azərbaycan dövləti və xalqı tərəfindən önəm verilən məsələlərdən ən əsasıdır. Bu, hərbi xidmətinizin yüksək səviyyədə təşkil olunması üçün sizə yaradılan şəraitdir.



Orduya göstərilən bu diqqət ölkədəki sabitlikdən, iqtisadi inkişafdan və Ali Baş Komandanın qayğısından irəli gəlir. Əsas problemimiz torpaqlarımızın işğal altında qalmasıdır. Bu problem Ali Baş Komandanın rəhbərliyi ilə Silahlı Qüvvələr tərəfindən həll olunacaqdır.

Qısa bir müddətdə erməni tərəfinə güclü zərbə vurmuşuq və qarşı tərəf panikadadır. Torpaqlarımızın azadlığı uğrunda düşmənə vurulacaq zərbədə əsas rolu, o cümlədən Hərbi Hava Qüvvələri yerinə yetirəcək və Azərbaycan xalqının, cənab Prezidentin etimadını doğruldacaqsınız.

Tikintidə əməyi keçən hər kəsə öz adımdan və bütün zabitlər adından minnətdarlığımı bildirirəm. Bir daha sizi təbrik edir, bu mənzillərdə ailənizlə bir yerdə xoşbəxt həyat və yeni nailiyyətlər arzulayıram".





Yaşayış binası ilə tanışlıq zamanı məlumat verilib ki, 5 mərtəbəli, 50 mənzilli 5 bloklu yaşayış binası 3 otaqlı mənzillərdən ibarətdir. Burada su, qaz, elektrik, telefon, rəqəmsal televiziya xətləri çəkilib və mərkəzləşdirilmiş istilik sistemi quraşdırılıb. Müasir standartlara cavab verən tam təmirli mənzillər yataq, qonaq, mətbəx mebelləri və digər lazımi avadanlıqlarla təchiz olunub.

Binanın həyətində abadlıq-yaşıllaşdırma işləri görülüb, böyüklərin və uşaqların səmərəli istirahəti üçün lazımi şərait yaradılıb. Ərazidə yarımstansiya, 2 ədəd hər biri 150 kub m. tutumu olan su anbarları tikilib, yaşayış binasının ətrafı asfalt döşəmə ilə örtülüb, kanalizasiya sistemi quraşdırılıb və ərazi hasara alınıb.

Mərasim iştirakçıları yaradılan şəraitdən məmnun qaldıqlarını və göstərilən qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Yeni mənzillərin açarları hərbi qulluqçulara təqdim edildikdən sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov yaradılan şəraitlə tanış olub, ailələrin qayğıları ilə maraqlanıb və çay süfrəsi ətrafında söhbət edib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Təlim*

# Məşğələnin hər dəqiqəsi qiymətlidir

***Dərs və məşğələlərdən yazıları həmişə ürəklə, həvəslə hazırlayıram. Çünki məşğələ prosesində Azərbaycan əsgərinin döyüş hazırlığının yüksək olduğunu yaxından görürəm. Və inanıram ki, bu güc, bu qüvvət bizi qələbəyə qovuşduracaq.***



Budur, baş leytenant Vahid Rzayevlə birlikdə təlimdə təcrübəsini artıran əsgərlərin yanına gedirik. Zabit bildirir ki, şəxsi heyət yorulmaq bilmədən məşq edir, daim döyüş hazırlıqlarını artırır. Zabitlərimiz məşğələnin hər dəqiqəsindən səmərəli istifadə edərək hərbi bilik və döyüş vərdişlərini gənc əsgərlərə aşılayırlar.

Bir anlıq kənarda dayanıb məşğələnin gedişini izləyirik. Əsgərlər iriçaplı pulemyotun yanında komandirlərin əmr və tapşırıqlarını cəld hərəkətlərlə yerinə yetirirlər. Şəxsi heyətin keçdiyi məşğələni diqqətlə izləyən baş leytenant Mədət Səmədov fikirlərini bölüşərək bildirdi ki, əsgərlərimizin hazırlıqlı olmasına çalışırıq. "Məqsədimizə çatmaq üçün məşğələlərin səmərəli keçirilməsini təmin edirik. Hərbi hissəmizdə dərs və məşğələ keçmək üçün komandanlıq hərtərəfli şərait yaradıb. Bu gün sırada təlim keçən əsgərlər xidmətə yenicə başlayıblar. Amma ötən müddət ərzində onlar hərbi bilik və vərdişlərə dərindən yiyələniblər".

Məşğələdə iştirak edən əsgərlər çalışırlar ki, tapşırıqları qüsursuz yerinə yetirsinlər. Buna görə də onlar əmr verilən kimi iriçaplı pulemyotu döyüş vəziyyətinə gətirir, özlərinə əlverişli mövqe seçirlər.

- Əsgərlərimizin döyüş hazırlığı nə qədər yüksək olsa, daha çox uğur qazanacaqlar, - deyə baş leytenant Mədət Səmədov sözə başladı. - Onların dərs və məşğələlərdə fəallıq göstərməsi, mövzuları həvəslə öyrənməsi bizi daha da ruhlandırır. Məşğələnin hər dəqiqəsi bizim üçün qiymətlidir. Şəxsi heyət, bir qayda olaraq, keçirilən mövzuları konspektləşdirir. Həm dərs prosesində, həm də asudə vaxtlarında mövzuları təkrarlayaraq əhatəli öyrənməyə çalışırlar. Biz zabitlər də məşğələnin hər dəqiqəsindən səmərəli istifadə etməyə çalışırıq. Dərs prosesində əyani vəsaitlərdən lazımınca istifadə olunur. Başlıca məqsədimiz əsgərlərə hərbi bilikləri yetərincə aşılamaqdır.

Baş leytenant M.Səmədov xidmətdə fərqlənən əsgərlərdən Emil Kərimli, Vəli Ələkbərov, Qiyas Babayev, Cavid Cəfərov və başqalarının adlarını qeyd etdi. Bildirdi ki, onlar hərbi bilikləri həvəslə öyrənirlər. Döyüş hazırlığı yüksək olan bu əsgərlər istənilən an iriçaplı pulemyotla düşmən hədəflərini məhv etməyə qadirdirlər.

Şəxsi heyətin məşğələsi öz axarı ilə davam edir. Əsgərlər hərbi biliklərə dərindən yiyələnmək üçün dərsin gedişinə diqqətlə fikir verir, tapşırıqları peşəkarlıqla yerinə yetirməyə çalışırlar. Döyüş hazırlığı yüksək olan hər kəs istənilən an dəqiq atəş zərbələri ilə düşmən hədəflərini məhv etmək bacarığındadır.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# Bakıda "İnformasiyanın idarə edilməsi və təhlükəsizlik haqqında maarifləndirmə" mövzusunda seminar təşkil olunub

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmrinə əsasən, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Latviya, Litva və Rumıniyanın Müdafiə nazirlikləri arasında ikitərəfli hərbi əməkdaşlıq planına uyğun olaraq, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "İnformasiyanın idarə edilməsi və təhlükəsizlik haqqında maarifləndirmə" mövzusunda seminar keçirilib.***



Birgünlük seminarda Latviya, Litva və Rumıniyadan olan mütəxəssislər, eləcə də Azərbaycan Silahlı Qüvvələrinin idarə və komandanlıqlarının nümayəndələri iştirak ediblər.

Seminarda informasiya təhlükəsizliyi risklərinin əsas faktorları və onların qiymətləndirilməsi üsulları, bu sahədə əsas problemlər və onların həlli haqqında məruzələr dinlənilib, prezentasiyalar olub. İnformasiya təhlükəsizliyinə xarici və daxili təhdidlər, onların qarşısının alınması üsulları barədə müzakirələr aparılıb.

Bundan əlavə, xarici mütəxəssislər təmsil etdikləri ölkələrdə informasiyanın idarə edilməsi və təhlükəsizliyi standartları, siyasəti, dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistemləri barədə təcrübələrini bölüşdülər.

Sonda geniş fikir mübadiləsi aparılıb, sual, irad və təkliflər səsləndirilib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***23 oktyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 93 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Kəngərli, Sarıcalı, Şuraabad, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 97 dəfə atəş zərbəsi endirib.

# İndoneziyanın İnsan Hüquqları üzrə Milli Komissiyasının sədri Xocalı soyqırımı haqqında kitab yazacaq

İndoneziya Respublikasının İnsan Hüquqları üzrə Milli Komissiyasının sədri Nur Xolis ölkəmizə səfəri çərçivəsində oktyabrın 21-də "Xocalıya Ədalət Beynəlxalq Kampaniyası" Beynəlxalq İctimai Birliyinin ofisində olub.

AZƏRTAC xəbər verir ki, ictimai birliyin icraçı direktoru Yusif Məmmədəliyev qonağa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətləri, xüsusilə Xocalı qətliamı barədə məlumat verib. O, Azərbaycan tarixində ən qanlı hadisələrdən olan bu cinayət hadisəsi zamanı dinc əhalinin xüsusi qəddarlıqla qətlə yetirildiyini, əsir götürülənlərin dəhşətli işgəncələrə, zülm və təhqirlərə məruz qaldıqlarını söyləyib. İcraçı direktor Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün görülən işlərdən də danışıb.

Görüşdə qonağa 2008-ci il mayın 8-də Şuşanın işğalının ildönümü günündə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın irəli sürdüyü təşəbbüs əsasında həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası haqqında məlumat verilib. Bildirilib ki, kampaniya hazırda 80-dən artıq ölkədə yüzlərlə könüllünün iştirakı ilə davam etdirilir. Məqsəd dünya ictimaiyyətinin Xocalı faciəsi ilə bağlı məlumatlandırılması, faciəyə beynəlxalq aləmdə siyasi-hüquqi və mənəvi qiymət verilməsidir. Aparılan məqsədyönlü iş nəticəsində Pakistan, Meksika, Kolumbiya, Rumıniya, Çexiya, Bosniya və Herseqovina, Peru, İordaniya parlamentləri, ABŞ-ın 17 ştatı Xocalı faciəsini soyqırımı kimi tanıyıb.

İndoneziyanın İnsan Hüquqları üzrə Milli Komissiyasının sədri Nur Xolis XX əsrdə Xocalı soyqırımı kimi dəhşətli bir faciənin törədilməsinin qəbuledilməz olduğunu bildirib. O, İndoneziyada Xocalı soyqırımının tanıdılması istiqamətində iş görəcəklərini diqqətə çatdırıb. Nur Xolis araşdırdığı və topladığı məlumatlar əsasında Xocalı soyqırımı ilə bağlı kitab yazacağını deyib.

Görüşdə Xocalı soyqırımından bəhs edən videoçarx nümayiş etdirilib, qonağın sualları cavablandırılıb.

# Müasir təcrübələrin öyrənilməsi qarşıda dayanan əsas vəzifələrdən biridir

## Cəbhə bölgəsində Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığı mövzusunda konfrans keçirilib

***Heç kimə sirr deyil ki, müasir dövrdə dünyada bütün sahələrdə olduğu kimi, orduların təkmilləşdirilməsi istiqamətində də sürətli yeniliklər baş verir. Və bu yeniliklər şəxsi heyətin mənəvi-psixoloji tərbiyəsində də öz təsirini göstərir. Yarandığı qısa dövrdə mühüm inkişaf uğurlarına imza atan Azərbaycan Silahlı Qüvvələrində aparılan səmərəli islahatlar doğma ordumuzun müasir tələblər səviyyəsində və elmi əsaslar üzərində inkişafına möhkəm zəmin yaradır.Vaxtaşırı şəxsi heyətin mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsi istiqamətində bu və ya digər aktual mövzularda konfransların keçirilməsi artıq dəyərli ənənə halını alıb.***



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, oktyabrın 23-də növbəti belə konfrans hərbi hissə və birləşmələrin, xüsusi təyinatlı təhsil müəssisələrinin şəxsi heyətlə iş üzrə komandir müavinlərinin iştirakı ilə keçirilib. "Dünya ordularının qabaqcıl təcrübəsi əsasında Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi-psixoloji təminatının əsas istiqamətləri" mövzusunda təşkil edilən konfransın iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər və abidə önünə gül dəstələri düzüblər.

Sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfrans iştirakçıları Azərbaycanın Dövlət himnini oxuyublar.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev konfransı açıq elan edərək iştirakçıları Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından təbrik edib və konfransın işinə uğurlar arzulayıb.

Nazirlər Kabinetinin ötən doqquz ayın sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxışına toxunan nazir müavini konfrans iştirakçılarının nəzərinə çatdırıb ki, dövlətimizin başçısı ordu quruculuğu məsələlərinə diqqət yetirib və bu sahədə görülən işləri, qazanılan uğurları yüksək qiymətləndirib. Onun sözlərinə görə, dövlət rəhbərliyinin orduya göstərdiyi yüksək diqqət və qayğı Silahlı Qüvvələrimizin şəxsi heyətini yeni uğurlar qazanmağa ruhlandırmalıdır.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev "Dünya ordularının qabaqcıl təcrübəsi əsasında Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi-psixoloji təminatının əsas istiqamətləri" mövzusunda geniş məruzə ilə çıxış edib. Son illər Azərbaycan Ordusunun qazandığı döyüş uğurlarından, cəbhə xəttində düşmən təxribatlarının qarşısının alınmasında əsgər və zabitlərimizin göstərdiyi qəhrəmanlıqlardan danışan idarə rəisi hazırkı dövrdə respublika rəhbərliyi tərəfindən ordu quruculuğunda aparılan önəmli islahatlardan danışıb. O, məruzəsinə davam edərək inkişaf etmiş dövlətlərin ordu quruculuğu təcrübəsinin öyrənilməsini vacib hesab edib, xüsusən də şəxsi heyətin mənəvi-psixoloji hazırlığı işinin təkmilləşdirilməsi istiqamətində qabaqcıl təcrübələrin təbliğ edilməsinin zəruriliyini diqqətə çatdırıb.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabitləri polkovniklər Rauf Dəmirov, Həbib Məmmədov, Silahlı Qüvvələrin Hərbi Akademiyasının müəllimi, ehtiyatda olan polkovnik İlham İsmayılov, C.Naxçıvanski adına Hərbi Lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Rəhim Səmədov, Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin nümayəndəsi polkovnik-leytenant İlqar Ağayev, Əlahiddə Ümumqoşun Ordunun nümayəndəsi polkovnik Mirqiyas Rüstəmov, hərbi birlik komandirlərinin şəxsi heyətlə iş üzrə müavinləri polkovniklər Valeh Rəcəbov, Elşad Əbilov, Elçin Kərimov, polkovnik-leytenant Elşən Əliquliyev və başqaları orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığı işinin bu və ya digər istiqamətləri barədə fikirlərini bölüşüblər.

Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev tədbirə yekun vuraraq səmimi diskussiya və fikir mübadiləsi şəraitində keçən belə konfransların şəxsi heyətlə iş üzrə cavabdeh zabitlərin peşəkarlıq səviyyəsinin artırılmasına dəyərli töhfə verəcəyini bildirib.

Konfrans iştirakçılarının suallarını cavablandıran nazir müavini əmin olduğunu bildirib ki, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh olan zabitlər Ali Baş Komandanın Silahlı Qüvvələr qarşısında qoyduğu vəzifələri yerinə yetirmək üçün öz bacarıqlarını bundan sonra da əsirgəməyəcəklər.






**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Rusiya və Azərbaycan Cənubi Qafqazda sülhün qarantı olmalıdır

***Soçidə 26 ölkədən 130 ekspertin iştirak etdiyi "Valday" beynəlxalq diskussiya klubunun XII iclası başa çatıb.***

Builki görüşün mövzusu "Hərb və sülh: insan, dövlət və böyük münaqişə təhlükəsi" olub. İştirakçılar mövcud təhlükələrin necə inkişaf edəcəyi, müharibə və sülh proseslərinin idarə olunması barədə proqnozlar veriblər.

Ekspertlər qarşısında çıxış edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin bütün dövlətlərin hər zaman müxtəlif istiqamətli maraqları olduğunu və olacağını, dünya tarixinin inkişafının isə böyük dövlətlər və ittifaqların daimi rəqabəti ilə müşayiət olunduğunu təsdiq edib. Vladimir Putin deyib: "Əsas odur ki, bu rəqabət müəyyən siyasi, hüquqi, mənəvi norma və qaydalar çərçivəsində qurulsun, əks halda rəqabət, maraqların toqquşması böyük münaqişələr və dramatik hadisələrə səbəb ola bilər".

Klubun işində iştirak edən Rusiya-Azərbaycan Dostluq Mərkəzinin direktoru, politoloq Natalya Krasovskaya qeyd edib ki, "Valday" klubu məkanında ekspertlərlə bir çox söhbətlərdə vaxtaşırı və müxtəlif aspektlərdə Azərbaycanın adı çəkilirdi. AZƏRTAC-ın müxbiri ilə söhbətində N.Krasovskaya deyib: "Bu, respublikanın dünya miqyasında artan əhəmiyyətini göstərir". Digər məsələlərlə yanaşı, Azərbaycanın tarixi təcrübəsi beynəlxalq terrorizmlə mübarizə texnologiyasının təhlili və öyrənilməsində faydalı ola bilər.

"Valday" diskussiya klubunda iştirak edən Rusiya Prezidenti Administrasiyasının rəhbəri Sergey İvanov Rusiyanın Suriyada hərbi əməliyyatlarını təcavüz anlayışından dəqiq fərqləndirib: "Rusiya bizə bilavasitə təhlükə yaradan terrorizmlə savaşır".

Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitriy Savelyev deyib: "MDB dövlət başçılarının bu yaxınlarda keçirilən iclasındakı çıxışında Prezident İlham Əliyev bəyan edib ki, "Azərbaycan öz tərəfindən beynəlxalq terrorizmlə mübarizə üçün bundan sonra da bütün səylərini əsirgəməyəcək".

"Rusiyanın Suriya ərazisində İŞİD terrorçularına qarşı açıq səmərəli mübarizəsi Azərbaycanın və bütün Cənubi Qafqazın maraqlarına cavab verir...

# "Ölkəmizi layiqincə təmsil edəcəyik"

***Bir neçə gün əvvəl beynəlxalq koalisiyanın tərkibində Əfqanıstan İslam Respublikasında sülhyaratma əməliyyatlarında iştirak edən zabit və əsgərlərimiz "N" hərbi hissəsindən bu ölkəyə yola salındı. Yolasalma mərasimi çox yaddaqalan oldu. Çıxış edənlər sülhməramlılarımıza uğurlar arzuladılar.***



Əfqanıstan İslam Respublikasına yola düşənlərdən bir neçəsi ilə görüşüb söhbət etdim. Onların üzü gülürdü, sevinc içindəydilər, ürəkləri dolu idi. İlk həmsöhbətim olan baş gizir Rövşən Qəhrəmanovun bu səfəri birinci deyildi.

- Altıncı dəfədir ki, sülhyaratma əməliyyatlarında iştirak etmək üçün Əfqanıstana yola düşürəm, - deyə baş gizir Rövşən Qəhrəmanov bizimlə söhbətində bildirir. - Bu sahədə kifayət qədər təcrübə və səriştəm var. Sülhyaratma əməliyyatlarında iştirak edərkən üzərimizə məsuliyyətli vəzifələr düşür. Çalışırıq ki, Azərbaycandan uzaqlarda xalqımızın və dövlətimizin başını həmişə uca tutaq. Neçə vaxtdır ki, bizim sülhməramlılara Kabul şəhərindəki mühüm bir obyekti qorumaq tapşırılıb. Yaxşı bilirik ki, bu məsuliyyətli bir vəzifədir. Ona görə də tapşırığı yüksək peşəkarlıqla yerinə yetirərək əfqan xalqına sülh və əmin-amanlıq bəxş edirik. Gərək qanlı müharibələrdən əzab çəkən xalq əmin-amanlıqda yaşasın. Xoşbəxt olsunlar, qan-qadadan uzaq olsunlar. Çalışırıq ki, beynəlxalq qüvvələr Azərbaycan zabitinin, Azərbaycan əsgərinin döyüş qabiliyyətini, hünərini, rəşadətini yaxından görsün. Xalqımız haqqında həmişə yüksək fikirdə olsunlar.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Sənan Rüstəmov bir neçə il əvvəl bu hərbi hissənin əsgəri olub. Vətənə ürəkdən bağlı olan Sənan ordu sıralarından tərxis olunandan sonra yenidən hərbi xidmətə qayıdıb, əyninə forma geyinib. Budur, bu gün zabit və əsgərlərimizin sıralarında Əfqanıstan İslam Respublikasında sülhyaratma əməliyyatlarında iştirak etmək üçün bu ölkəyə yola düşür. Söhbət əsnasında Sənan Rüstəmov dedi ki, mən əsgər kimi bu hərbi hissədə xidmətdə olarkən doqquz ay müddətində İraqda sülhyaratma əməliyyatlarında iştirak etmişəm. Burada tapşırıqları peşəkarlıqla yerinə yetirdiyimizə görə müxtəlif mükafatlar da almışdıq. İndi isə Əfqanıstan torpağına gedirik. Qazandığımız təcrübədən yetərincə yararlanaraq sülhyaratma əməliyyatlarında bacarıqla iştirak edəcək, ölkəmizin adını həmişə uca tutacağıq.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### İranın Ali rəhbəri nüvə razılaşması ilə bağlı öhdəliklərin yerinə yetirilməsinə razılıq verib



Oktyabrın 21-də İran İslam Respublikasının Ali rəhbəri Ayətullah Əli Xamneyi ölkə prezidenti Həsən Ruhaniyə məktub ünvanlayıb.

Ali rəhbərin dəftərxanasının açıqlamasında deyilir ki, Əli Xamneyi məktubda İranın Qərb dövlətləri ilə əldə etdiyi nüvə proqramına dair razılaşmanı bəyəndiyini bildirib və öhdəliklərin yerinə yetirilməsi prosesinin başlaması haqqında göstəriş verib.

Lakin məktubda o da qeyd edilib ki, ABŞ və danışıqlarda iştirak edən digər dövlətlər insan hüquqlarını qorumaq bəhanəsi ilə İrana qarşı hər hansı bir sanksiya tətbiq etməyə çalışsalar, razılaşmaya əsasən, öhdəliklərin yerinə yetirilməsi dayandırılacaq və İran nüvə proqramını həyata keçirməyə davam edəcək.

### Romadakı gizli "İmperator enişi" turistlərin ixtiyarında



Bir vaxtlar Roma imperatorları tərəfindən istifadə olunmuş gizli yol turistlərin ixtiyarına verilib. Roma imperatorlarının saraylarının yerləşdiyi Palatine təpəsi ilə Romanın qədim Forum küçəsini birləşdirən bu tunel turistlərin böyük marağına səbəb olacaq. İki min yaşı olan yol "İmperator enişi" adlandırılır.

Vaxtilə məşəllərlə işıqlandırılan, imperatorların mühafizəçiləri tərəfindən qorunan və hündür tavanlı bu yol hətta atlarla birlikdə keçilə biləcək qədər geniş olub. Belə güman ki, yolun bir hissəsi IX əsrdə baş vermiş zəlzələ nəticəsində dağılıb. İlk dəfə 1900-cü ildə kəşf olunmuş bu tuneldə əsaslı təmir işləri bir neçə il bundan əvvəl başladılıb.

### "Western Digital" "SanDisk"i 19 milyard dollara alacaq




Dünyanın ən böyük sərt disk istehsalçısı "Western Digital" ən böyük çip istehsalçısı "SanDisk"i 19 milyard dollara alacaq.

Bununla korporasiya qiyməti 1,1 faiz düşən səhmlərinin dünya bazarındakı əvvəlki mövqelərini bərpa etmək fikrindədir.

Müqavilənin 2016-cı ilin üçüncü rübündə imzalanması nəzərdə tutulur.

### Alyaskadakı daimi buzlaqlar 2070-ci ildə əriməyə başlayacaq



Yerin şimal yarımkürəsində yerləşən daimi buzlaq təbəqəsi xeyli isinib və əvvəllər güman edildiyi vaxtdan tez əriməyə başlaya bilər. Bu barədə Yer kürəsində buzlaqların tədqiqi üzrə beynəlxalq proqramın rəhbəri, Alyaska Universitetinin professoru Vladimir Romanovski proqnoz verib.

Dünyada daimi buzlaqların tədqiqi üzrə aparıcı alimin fikrincə, donmuş torpaqların əriməsi nəticəsində artan metan qazı qlobal istiləşməni bir qədər də sürətləndirəcək. Vladimir Romanovskinin sözlərinə görə, Alyaskadakı donmuş torpaqların temperaturu 2000-ci ildən başlayaraq, durmadan artmaqda davam edir. Bu tendensiya davam edərsə, 2070-ci ildən Amerika qitəsində olan daimi buzlaqlar əriməyə başlayacaq.

Qalınlığı 1 metrdən 1500 metrə çatan daimi buzlaq qatı Şimal yarımkürəsində Sibirin geniş əraziləri də daxil olmaqla, qurunun 25 faizini örtür.

### Filippində çinli diplomatlar öldürülüblər



Çinin Filippindəki baş konsulu ağır yaralanıb, müavini və maliyyə müşaviri isə öldürülüb.

Hadisə ölkənin əsas şəhərlərindən olan Sebuda restoranda açılan atəş nəticəsində baş verib. Polis hadisəni törədən qadının konsulluğun keçmiş əməkdaşı olduğunu bildirib.

### Nəhəng asteroid oktyabrın 31-də Yerə ən yaxın məsafədən keçəcək



"2015 TB145" adlandırılan nəhəng asteroid oktyabrın 31-də Yer kürəsinə maksimum yaxınlaşacaq.

NASA mütəxəssisləri nəhəng asteroidin saniyədə 35 kilometr sürətlə Yerə doğru hərəkət etdiyini bildiriblər. İngilisdilli ölkələrdə "Halloween" gününün qeyd olunduğu oktyabrın 31-də kosmik obyekt bizim planetə 9 il ərzində ən yaxın məsafədən - 499 min kilometr aralıdan keçəcək. Bu da Yerdən Aya qədər olan məsafənin 1,3 nisbətinə bərabərdir.

Mütəxəssislərin hesablamalarına görə, səma cisminin diametri 280 metrdən 620 metrə qədər ola bilər. Alimlər asteroidin Yer kürəsinə heç bir təhlükə törətməyəcəyini düşünürlər.

### NATO və kibernetik təhlükəsizlik




Çexiya Respublikası NATO üzvü olan dövlətlər arasında birinci olaraq Şimali Atlantika Alyansı ilə kibernetik təhlükəsizlik sahəsində anlaşma memorandumu imzalayıb. Sənədin məqsədi kibernetik təhlükələrə və hücumlara qarşı mübarizədə Alyans ilə Çexiya Respublikası arasında əməkdaşlığı yaxşılaşdırmaq və gücləndirməkdir. Mütəxəssislərin fikrincə, gələcəkdə bu cür hücumlar daha tez-tez baş verəcək, onlar daha mürəkkəb üsullarla həyata keçiriləcək və daha çox ziyan vuracaq.

Memorandumu Çexiya tərəfdən Çexiya Milli Təhlükəsizlik İdarəsinin direktoru Duşan Navratil imzalayıb.

ÇTK agentliyi idarənin mətbuat katibi Radek Qolıya istinadən bildirir ki, hər il bütün dünyada hakerlərin vurduğu ziyanın həcmi bir neçə yüz milyard dollara çatır. Onlar bankların məlumat bazalarını dağıdır, kredit kartlarının kodlarını "sındırır", habelə intellektual mülkiyyətə, sənaye və biznes sahələrinə aid məlumatlara hücum edirlər. Çox vaxt onların hücumları siyasi məqsədlərlə bağlı olur.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

Vətənpərvərlik

# Onların böyük arzuları

***İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Vətənpərvərlik həm də Vətən naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıq, fədakarlıq göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinmək və bunun üçün çalışmaqdır. Bu hiss bütün digər hisslər kimi tərbiyə yolu ilə möhkəmlənir.***

Ümummilli lider Heydər ƏLİYEV:

*Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir.*

Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması, yeniyetmə və gənclərin bu ruhda tərbiyəsi həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən olub.

Qarabağ döyüşlərində vuruşan Azərbaycan zabitlərinin əksəriyyəti bünövrəsini ulu öndər Heydər Əliyevin qoyduğu Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirmələri idi. Vətənpərvər zabitlərin yetişməsində bu liseyin rolu daim böyük olub.

Kursant Türkel Hüseynov liseyin nümunəvi kursantlarındandır. Tədris ilinin yekununa görə kurs birincisidir. Türkel ilk növbədə lisey rəhbərliyinin, müəllimlərin onlara olan diqqət və qayğısından ağızdolusu danışdı. Liseyin məzunu yüksək rütbəli zabitlərdən söz açıb "Onlar bizim üçün nümunədir. Bir gün mən və yoldaşlarım onların sırasında Vətənə, millətə layiqli vətəndaşlar olacağıq", - dedi. "Biz öz məsuliyyətimizi aydın dərk edirik. Vətən övladlarının uğrunda canlarını fəda etdikləri müqəddəs amallar qəlbimizdə çox böyük yer tutub. Şəhidlərimizin qanı ilə qazanılan müstəqilliyi, azadlığı göz bəbəyimiz kimi qoruyub saxlayacaq, düşmən ayaqları altında od tutub yanan torpaqlarımızı azad etməyi ən əsas məqsədimiz biləcəyik".



Kursant Türkel Hüseynov

Kursant Mərhəmət Fərəczadə də kurs ikincisidir. Vətənə sevgi, ilk növbədə, ailədən başlanır. İllərdir müharibə ovqatında yaşayan ailələrdə qorxubilməz, mərd oğullar yetişir. Mərhəmətdə də bu sevgini, zabit olmaq həvəsini atası yaradıb. "Uşaq yaşlarımdan atam həmişə deyərdi: Mənim oğlum zabit olacaq, şəhidlərimizin qisasını alacaq". Həmsöhbətimin üzünü bir anlıq sanki qara buludlar alır, gözlərini bir nöqtəyə zilləyib: "Xocalı faciəsində, bir gecədə 600-dən çox soydaşımızın həyatına son qoyan köçəryanlar, balayanlar törətdikləri soyqırıma görə nə qədər ki, layiqli cəzalarını almayıblar, biz gənclər özümüzü Vətənimizin, şəhidlərimizin qarşısında borclu sanırıq. Bu bizim liseyin bütün kursantlarının amalı, əqidəsidir". Kursantla söhbətimdən hiss edirəm ki, onun Vətən eşqi ilə döyünən qəlbində bitib-tükənməyən arzular boy atmaqdadır.



Kursant Mərhəmət Fərəczadə

Başqa bir həmsöhbətim isə kurs üçüncüsü kursant Aydın Sadıqzadədir. Liseyin fəal kursantlarından olan Aydınla söhbətimdə o bildirdi ki, babası Böyük Vətən müharibəsi iştirakçısı olub. Gələcək zabitimizin yaddaşında onun müharibə haqqında söhbətləri, medalları xoş bir xatirə kimi qalmaqla bərabər, hərb sənətinə böyük sevgi, maraq da oyadıb. Ağlı kəsəndən ailədə daim işğal altında olan torpaqlarımız, doğma Ağdam haqqında çox söhbətlərin şahidi olub. "Mən Ağdamı anamın laylalarında tanıyıb sevmişəm", - deyir müsahibim. Torpağına ayaq basıb, havasını ciyərlərinə çəkməyən bu gənc Ağdam həsrəti ilə yaşayır. Düşməndən qisas almaq hissi onun daxilində bir məşələ çevrilib. İndi onun bir amalı var. Zabit olub doğma Azərbaycanımızın ərazi bütövlüyünün bərpa olunması uğrunda yaxından iştirak etmək.



Kursant Aydın Sadıqzadə

Əlaçı kursant kimi təqdim edilən Xəlil Xəlilov liseyin ikinci kursunda oxuyur. Söhbətimiz zamanı Vətənə olan sevgisi hər kəlməsində hiss olunurdu. Xəlilin əmisi Eldar Xəlilov Azərbaycanın Milli Qəhrəmanıdır. Damarlarında axan qan, görüb eşitdikləri danışdırırdı bu gənci. "Vətən bizim hamımızındır. Biz işğal altında olan torpaqlarımızı azad etmək üçün canımızdan belə keçməyə hazırıq. Bizim nəslimizi mənfur düşmənlərimiz Qərbi Azərbaycandan, əzəli torpaqlarımızdan didərgin salıblar. Valideynlərim indi də o torpaqların həsrəti ilə yaşayırlar. Mən istəmirəm ki, bu həsrət ürəklərdə qaysaqlanmayan yara, acı bir xatirə kimi qalsın. Əcdadlarımızın ruhu dolaşan torpaqlarımızı mütləq azad etməliyik".

Kursantlarla söhbətimdən sonra bir daha əmin oldum ki, vətənpərvərlik insanda qəhrəmanlıq, fədakarlıq və məğlubedilməzlik hissi yaradır, hər kəsin mübarizədə inam hissini gücləndirir.

Hər kursantla söhbətlərimdə onların səmimiyyətini, ən müqəddəs peşəyə - Vətəni qorumaq peşəsinə bağlandıqlarını dərindən hiss edirəm. Özlüyümdə bir həqiqətə inanıram ki, onlar bu peşəni təsadüfən yox, ürəklərinin hökmü ilə seçiblər. Bəlkə də Vətənimizin ən layiqli vətəndaşı olmaq arzuları onları bu peşəyə bağlayıb və inanıram ki, öz peşələrinə dərin sevgisi olan kursantlarımız gələcəyin ən bacarıqlı zabitləri sırasında olacaq, Vətənimizin hərbi qüdrətinin möhkəmlənməsinə dəyərli töhfələrini verəcəklər.



Kursant Xəlil Xəlilov

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**



## “Bayrağımız - milli qürurumuzdur”

Silahlı Qüvvələrin şəxsi heyəti arasında yazı

## müsabiqəsi

Silahlı Qüvvələrimizin şəxsi heyətinin mənəvi hazırlığı həmişə diqqət mərkəzindədir. Bu istiqamətdə müxtəlif mövzularda geniş miqyaslı tədbirlər həyata keçirilir ki, bunlar da hərbçilərin istər dünyaduyumunun formalaşmasında, istərsə də mənəvi aləminin zənginləşməsində müstəsna rol oynayır.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Silahlı Qüvvələrin şəxsi heyəti arasında "Bayrağımız - milli qürurumuzdur" mövzusunda yazı müsabiqəsi elan etməsi də bunun təzahürüdür. Belə bir müsabiqənin keçirilməsi Silahlı Qüvvələr və qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, birlik və birləşmələrdə mənəvi-psixoloji hazırlığın daha intensiv təşkilinin təmin edilməsində vasitə olacaqdır.

Müsabiqəyə təqdim edilən yazılara Şəxsi Heyət Baş İdarəsi rəisinin əmri ilə müəyyənləşdirilmiş komissiya tərəfindən baxılacaq, daha əhatəli, məzmunlu, bədii yazılar seçilərək qaliblər müəyyənləşəcək.

Yazı müsabiqəsi noyabr ayının 9-da yekunlaşacaq.

Müsabiqədə fərqlənənlər həm Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinə uyğun olaraq həvəsləndiriləcək, fərqlənən yazılar "Azərbaycan Ordusu" qəzetində dərc ediləcək, həm də qaliblər Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən mükafatlandırılacaq:

I yer - 200 manat; II yer - 150 manat; III yer - 100 manat.

**"Azərbaycan Ordusu"**

# Xarici hərbi xronika

## Uçuş xətti üzrə kompleks tikiləcək

Yaponiyanın Aerokosmik Tədqiqatlar Agentliyi 2019-cu ildə Taneqasima kosmodromunda uçuş xətti üzrə yeni kompleksin tikilməsi, həmin meydançadan yeni H-3 raket-daşıyıcısının buraxılacağı və 2020-ci ildə raketin istismara verilməsi haqqında məlumat verib. Hazırda ölkədə iki kompleks mövcuddur, onlardan biri H-2A reketinin, digəri isə H-2B raketlərinin buraxılması üçün nəzərdə tutulub. Məhz ikinci raketin yenidən quraşdırılması həyata keçiriləcək. Bu işlərin görülməsi üçün 79,8 milyon dollar vəsait hesablanıb. Bununla kosmodromdan ildə onlarla raketin buraxılmasına imkan yaranacaq, bu da əvvəlki dövrlə müqayisədə iki dəfə çox deməkdir. Yaxın on ildə milli kosmik sənayesinin sürətlə inkişafı da planlaşdırılıb. 2025-ci ilə qədər səkkiz ədəd müxtəlif növ peyklərin buraxılması da gözlənilir.

## Hindistan və ABŞ kimyəvi-bioloji mühafizə geyim dəsti hazırlayacaq

Hindistan ilə ABŞ birlikdə hərbi qulluqçuların istifadəsi məqsədilə kimyəvi-bioloji mühafizə geyim dəstinin hazırlanması üçün razılaşma əldə edəcək. Daha sonra hər iki ölkə birlikdə hərbi məqsədlər üçün yeni nəsildən olan generatorların istehsalına başlayacaq. Bu haqda Hindistan Müdafiə Nazirliyinin nümayəndəsi Siqanşu Kar məlumat verib. Hər iki layihə hərbi-texniki əlaqələr üzrə keçirilən iclasın komissiyasında bəyənilib. Amerikanın Müdafiə İdarəsinin başçısı bildirib ki, hər bir layihənin hazırlanması hər iki ölkə üçün bərabər olaraq maliyyələşdiriləcək (yəni 1 milyon dollar), gələcəkdə də hər iki ölkə bir çox layihələr üzərində birgə işləyəcəklər.

## “Pinaka” Mk.2 reaktiv sisteminin sınağı keçirilib

Bu yaxınlarda Hindistan Müdafiə Nazirliyinin müdafiə tədqiqatları üzrə müəssisəsi quru qoşunları ilə birlikdə təlim mərkəzində 214 mm-li "Pinaka" Mk.2 yaylım atəşli reaktiv sistemin sınağını həyata keçirib.

Bu ölkənin informasiya vasitələrinin məlumatına görə, atəş sınağının keçirilməsində əsas məqsəd yeni proqram təminatının yoxlanılmasıdır. Sınaq zamanı altı ədəd reaktiv mərmi atılıb. Bu mərmilər atəş mövqeyindən 55 kilomertlik məsafədə hədəfi məhv edib. Sınağın nəticələri uğurlu olub.

"Pinaka" Mk.2 silahlanmada duran "Pinaka" Mk.1 reaktiv sisteminin modernləşdirilmiş variantıdır. "Pinaka" Mk.2 meydanda yerləşən hədəfləri, düşmənin cəmləşdiyi mövqeləri, rabitə mərkəzlərini, aerodromları, artilleriyanın atəş mövqelərini, raket komplekslərini və minalanmış sahələrini məhv etmək üçün nəzərdə tutulub. Sistemin əsas xüsusiyyətləri onun mobilliyi, dəqiqliyidir. Maksimal atış uzaqlığı 60 kilometr təşkil edir. Qoşunların tərkibinə 2016-cı ilin əvvəlində daxil edilməsi nəzərdə tutulib.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

Tibb xidməti

# Əsgərlərimizin sağlamlığının keşiyində

***Hər bir xalqı dünyada tanıdan, məşhurlaşdıran, güc sahibinə çevirən amillərdən biri də onun ordusu, silahlı qüvvələridir. Tarixən hər bir millət ordusunun gücü, qüdrəti ilə öyünür, bu gücü milli qürur və fəxarət sayır. Əslində güclü dövlətin təməl prinsiplərindən biri qüdrətli ordunun mövcudluğudur.***

Qüdrətli ordunun təməlini isə sağlam döyüşçülər təşkil edir. Ümumiyyətlə, sağlam gənclik hər bir millətin inkişafının təməl daşıdır. Məhz bu səbəbdən bir millətin mövcudluğu üçün sağlam gəncliyin olması vacib şərtdir.

Bu gün Azərbaycan Ordusunun döyüş qabiliyyətinin, mənəvi-psixoloji hazırlığının yüksək olmasının əsas səbəblərindən biri də əsgərlərin sağlamlığıdır. Əsgərlərin sağlamlığının keşiyində Hippokrat andına sadiq qalan tibb işçiləri dayanır. Şəxsi heyətin sağlamlığını qorumaq üçün orduda çoxlu sayda hospitallar, tibb məntəqələri mövcuddur.

Hərbi hissələrdə ezamiyyətdə olarkən əsgərlərin sağlamlığı keşiyində dayanan tibb işçiləri ilə tanış oluruq. Bu dəfəki həmsöhbətimiz baş leytenant Pərviz Fazilovdur. Azərbaycan Tibb Universitetinin məzunu olan həkim bildirir ki, hərbi həkimlərin hazırlanması məqsədilə neçə illərdir ki, Azərbaycan Dövlət Tibb Universitetinin nəzdində hərbi tibb fakültəsi fəaliyyət göstərir. Bu fakültə həm hərbi tibb kadrlarının - zabitlərin, həm də feldşerlərin - gizirlərin hazırlanması üçün əsas bazadır. Universitetin tələbələri arasından da hərbçi olmaq istəyənlər öz müraciətləri əsasında təhsillərini hərbi tibb fakültəsində davam etdirirlər. Bitirdikdən sonra həkim zabitlər orduda xidmətə başlayırlar.

\- Orduda xidmətə başlayan əsgər ilk gündən həkim nəzarəti altında olur. Əsgərlərin hər biri üçün tibbi kitabçalar tərtib olunur və xidmət müddətində tibb məntəqəsinə edilən bütün müraciətlər həmin kitabçada öz əksini tapır. Ehtiyac yarandığı halda hər bir əsgərə ambulator və ya stasionar müalicə göstərilir, - dedi gənc zabit.



Azərbaycan Ordusunda şəxsi heyətin sağlamlığının keşiyində dayanmaq üçün kifayət qədər səriştəli və savadlı həkimlər çalışırlar. Bunların sırasında zabitlərlə yanaşı, feldşerlərimiz də var.

Gizir Ziya Hüseynov da hərbi həkimlərimizlə yanaşı, əsgərlərimizin sağlamlığının keşiyində dayanır. Əslən Şamaxı rayonundan olan gizir uzun illərdir ki, ordu sıralarındadır.

\- Daim mütaliə ilə məşğulam, kitablar oxuyuram. bir kitabdan oxuduğumu sizlərlə bölmək istəyirəm, - deyə gizir bildirir. - İnsanın özünü, öz maddi və mənəvi potensialını reallaşdıra bilməsi üçün ona ilk növbədə fiziki sağlamlıq lazımdır. "Sağlam ruh, sağlam bədəndə olar" kəlamı da təsadüfən yaranmayıb. Belə ki, fiziki sağlamlıq mənəvi sağlamlıq üçün hələ kifayət deyil. Lakin bu şərt kafi olmasa da, zəruri şərtdir. Həm də təkcə idmançılar üçün yox, hamı üçün.

Sağlam bədənin sağlam ruh üçün şərt olması haqqında da çox deyilib. Lakin nə üçünsə sağlam ruhun da öz növbəsində bədən sağlamlığı üçün şərt olduğu yaddan çıxarılır. Təsadüfi deyildir ki, Şərq təbabəti ruhu bədən vasitəsilə deyil, bədəni ruh vasitəsilə müalicə etməyə çalışır. Bədənin fiziki enerji ehtiyatları məhdud olduğu halda, mənəvi enerji potensialı çox böyükdür.

**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

Düşüncələr

# Qisas

Bu hadisə 1993-cü ildə olub. Ağdərə əməliyyatında. Kəşfiyyatçı dostumdan eşitmişəm:

Ağdərə uğrunda ağır döyüşlər gedirdi. Daşlı təpəliyin o üzü ermənilərdəydi, bu üzü bizim döyüşçülərimizdə. Bu təpəlik Ağdərənin giriş qapısıydı. O qapının "dəstəyi" kimin əlində olsa, qələbə onunku olacaqdı; strateji əhəmiyyətli mövqe həmişə növbəti əməliyyatlarda qələbəni şərtləndirən amillərdən olub...

Günəş hələ də öz dərdini özü çəkən dağların arxasına meyillənmişdi...

...Göy üzündə süzən, qanadlarıyla göy üzünün üzünü silən qartal yorulmuşdu, deyəsən. Enib dincini almaq istəyirdi. Könlünə yatan yer gəzirdi, tapa bilmirdi. Süzdükcə süzürdü. Bu uçuş ayrı uçuşuydu; göylər sultanı yaralanmışdı, dağa, daşlı təpəliyə yaxın düşməyə güllələr aman vermirdi. Uçub uzaqlaşmağa heyi qalmamışdı. Gah çırpına-çırpına yerə yaxınlaşırdı, gah da güc tapıb göyə şığıyırdı. Özünə nə yerdə yer tapırdı, nə göydə. Onsuz da ömrü yerlə göy arasında keçən qanadlı sultan gözucu daşlı təpəliyin bu səmtinə baxırdı. Oracan uça bilməyəcəkdi.

Qarğa-quzğun gözə dəymirdi. Qarğa-quzğunda cəsarət nə gəzir ki, göyün üzünü güllə qarsılayanda da qanad açıb, uça, qanadları ilə yeri kölgələndirə...

Qartal daşlı təpəliyin o üzünə düşdü. Elə bil daş parçasıydı. Düşdü, tərpənə bilmədi. Yarasından qan damırdı...

Yaralı qartal iti baxışlarıyla başının üstünü kəsdirənlərə baxırdı. Ermənilərиydi. Daşlı təpəliyin bu üzünə düşsə, insaflılarla əhatələnərdi. Onda bəlkə də şəfa tapardı.

1993-cü ildə Tərtərdə də bir yaralı qartal görmüşdüm. Uça bilməyən yaralı qartalı güc-bəla ilə ram etmişdilər. Yarasına məlhəm qoymuşdular, sarımışdılar. On günün içində yaraları sağalmaqdaydı. Sonralar keçmiş döyüşçü Pənah dedi ki, qartal sağalıb, onu azadlığa buraxıblar. Azadlığı dadar-dadmaz göy üzünə şığıyıb, bir neçə dəfə xilaskarlarının başı üstündə dövrə vurub, uzaqlara uçub...

Biri ağacla qartalı qansızcasına döyürdü, bütün qəzəbini-nifrətini ağaca büküb döyürdü. Döyə-döyə öldürmək istəyirdi. Qartal ona neyləyib? Dədəsinəmi söyüb, damına daşlarmı atıb?.. O qartal yaralı olmasaydı, belə gədələr ona yaxın düşə bilərdimi? Min-min illərdi gədəlik qartallığın həndəvərinə yaxın düşə bilməyib...

Birdən... Birdən qartal gücünü toplayıb qanadları üstünə qalxdı, erməninin üstünə atılıb caynağını başına sancdı. Erməninin gözü töküldü...

Son nəfəsində erməninin gözünü tökən qartal torpağa döşəli qaldı...

Yağan yağışlar da, əsən-coşan küləklər də, çaxan şimşəklər də o qartalın son nəfəsindən sıyrılıb elə bil. O qartalın son nəfəsdə dirçəlməsi, erməninin gözünü tökməsi erməniliyə dərs olmalıydı. Erməni anlamalıydı ki, bu torpağın qartalı qisasını qiyamətə saxlamır, qisasını məqamında alır. Qartalı qartal eləyən bu torpaq da erməniliyin cavabını verəcək, şübhəsiz. O məqama az qalıb. Oğullarımız qartal qətiyyətiylə tarixi bir əmri yerinə yetirəcək. Göy üzündə yenə qartallar görünəcək, uçuşuyla döyüşçülərimizin qətiyyətini uğurlayacaq, erməniliyin gözünə kül ələyəcək...

Azərbaycan əsgəri işğal altında qalan torpaqlarımızın harayına qartal uçuşuyla gedəcək, erməniliyin gözünü tökəcək. Mütləq tökəcək! Onda torpaq illərlə çəkdiyi zillətin ağrılarını unudacaq.

**Rəşid HÜSEYNOV,
"Azərbaycan Ordusu"**

# İdman

## Döyüş növləri üzrə Azərbaycan yığması Almaniyada keçirilən dünya çempionatında 7 medal qazanıb




Döyüş növləri üzrə Azərbaycan yığması Almaniyada Azərbaycan bayrağını 7 dəfə qaldırıb. Yığmamız 4 qızıl, 1 gümüş və 2 bürünc medal qazanaraq ümumkomanda hesabında birinci olub. Medal qazanan idmançılar Fərid Qasımov, Fərrux Babayev, Marşall Savçuk, Şir-Aslan Kərimov, Fərhad Tağıyev və Cəmil İbrahimovdur.

## “Avro-1988”-in gümüş mükafatçısı “Neftçi” klubunun üzvləri ilə görüşüb



Futbol üzrə keçmiş SSRİ yığmasının və "Spartak" (Moskva) komandasının dünya şöhrətli qapıçısı Rinat Dasayev oktyabrın 21-də Bakının "Neftçi" klubunun təlim-məşq bazasında olub.

"Avro-1988"-in gümüş, olimpiya oyunlarının bürünc mükafatçısı "Neftçi"nin üzvləri ilə görüşüb. Qonağa "Neftçi"nin forması və rəmzləri hədiyyə edilib.

## Cüdoçularımızın dünya çempionatındakı ilk rəqibləri müəyyənləşib




Xəbər verdiyimiz kimi, gənc cüdoçulardan ibarət Azərbaycan milli komandası Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu-Dabidə keçirilən dünya çempionatında iştirak edəcəklər. Artıq cüdoçularımızın ilk rəqibləri müəyyənləşib.

Natiq Qurbanlı monqolustanlı Ariunbold Enxtaivan, Sadıx Məhərrəmov iranlı Mohammed Raşnonejat (hər ikisi 55 kq) ilə üz-üzə gələcəklər. Elbrus Zamanov Malavi təmsilçisi Çikondi Kateveranı, Davud Məmmədov isə Taiko Fujisaka (Yaponiya) - Patrik Mendiola (hər ikisi 60 kq) duelinin qalibi ilə qarşılaşacaq. Yarışda Hidayət Heydərov (66 kq) fələstinli Muayyad Tvaib, Hüseyn Rəhimli (73 kq) Böyük Britaniya təmsilçisi Erik Ham, Rüfət İsmayılov (81 kq) lüksemburqlu Bilqe Bayanaa ilə gücünü sınayacaq. Firudin Dadaşov Yeni Zelandiya təmsilçisi Mettyu Rouli, Vasif Şərbətli xorvatiyalı Marko Kumriç (hər ikisi 90 kq), Cəlil Şükürov (100 kq) braziliyalı Leonardo Qonsalves ilə mübarizə aparacaq.

Qadın idmançılarımızdan isə Leyla Əliyeva (48 kq) Türkmənistan təmsilçisi Arzuv Yalkapova, Səkinə Zairova (52 kq) isə mərakeşli İkram Soukate ilə üz-üzə gələcək.

Oktyabrın 23-dən 27-dək keçiriləcək çempionatda 82 ölkədən 338 kişi və 222 qadın güləşçi birincilik uğrunda gücünü sınayacaq.

## Ağdamın “Qarabağ” futbol komandası UEFA Avropa Liqası yarışlarında növbəti oyununu keçirib



Oktyabrın 22-də UEFA Avropa Liqası yarışlarının qrup mərhələsi çərçivəsində Ağdamın "Qarabağ" futbol komandası növbəti oyununu keçirib.

Azərbaycan çempionu Fransada "Lui II" stadionunda yerli "Monako" komandasının qonağı olub.

Qarşılıqlı hücumlar şəraitində keçən oyunun ilk hissəsində qapılara top vurulmayıb. Matçın 70-ci dəqiqəsində "Monako"nun futbolçusu Stefan Əl-Şaaravinin ötürməsini Lasina Traore qolla tamamlayıb.

Beləliklə, görüş "Monako"nun minimal üstünlüyü ilə başa çatıb - 1:0.

**AZƏRTAC-ın
materialları əsasında**

Polkovnik-leytenant Kərimov Rövşən Aftandil oğluna 2014-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 822
Nüsxə 4710